

*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 iyul 2016-cı il № 50 (2065) Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

*Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir.*



## Əsgərin gücü vətənpərvərliyindədir

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev daim ordu gəncləri ilə görüşlərində bildirirdi ki, əsgərin, döyüşçünün gücü onun vətənpərvərliyindədir. Doğrudan da, ürəyində Vətən sevgisi olmayan əsgər ən müasir silahla belə düşmənə qalib gələ bilməz. Düşmən üzərində zəfər qazanmağı qarşısına məqsəd qoyan əsgər Vətəninə, millətinə, dövlətinə sıx tellərlə bağlı olmalıdır. Məlum aprel döyüşləri həm də Azərbaycan Ordusunun əsgər və zabitlərinin yüksək vətənpərvərlik hissinə malik olduğunu göstərdi. Əgər belə olmasaydı, çox qısa bir vaxtda mühüm yüksəkliklər fəth edilə bilməzdi. Bu gün həmin yüksəkliklərdə ucalan bayraqlarımız əsgərimizin, zabitimizin mənəvi dəyərlərə sadəqətinin rəmzidir.***

Cəbhə bölgəsinə ezamiyyətim əlamətdar bir vaxta - Silahlı Qüvvələr Günü ərəfəsinə təsadüf edir. Döyüş şəraitində yerləşməsinə baxmayaraq, hərbi hissənin əsgəri də, zabiti də, komandiri də - hamı xoş ovqatdadır. Yüksək mənəvi keyfiyyətlərə malik olan gənclərin cəbhə xəttində döyüş növbətçiliyini uğurla keçirməsi xalqın ordumuza inamını möhkəmləndirir. Bu, bizi böyük Qələbəmizə yaxınlaşdırır. Cəmiyyətimizdə aprel döyüşlərindən sonra yaranan nikbin ab-hava hamıda belə bir inam yaradıb ki, Azərbaycan əsgəri istənilən hərbi tapşırığı uğurla icra etməyə qadirdir.

Düşmənlə təmas xəttində yerləşən taborun qərargahında təcrübəli zabitlərdən biri - mayor Tariyel Didarovla görüşdük. Səhər yerbəyerindən sonra şəxsi heyətin vacib döyüş tapşırıqlarını yerinə yetirdiyini bildirən zabit qeyd etdi ki, şəxsi heyətin döyüş ruhu yüksəkdir: "Səmimi sözümdür, bu gün hər bir əsgər torpaqlarımızı azad etmək üçün döyüş əmri gözləyir. Azərbaycan Ordusunun aprel döyüşlərindəki qələbəsi hər kəsə ruh yüksəkliyi aşılayıb. Adları dillərdə dolaşan igidlərin, şəhidlərin hər biri əsgərlərimizə nümunə, örnəkdir."

...Düşmənlə təmas xəttində Vətənə övlad borcunu yerinə yetirən oğulların görüşünə yenə xoş hisslərlə yola düşürük. Hər dəfə cəbhə bölgəsi deyiləndə gözlərim önündə Vətənin, elin-obanın qorunduğu müqəddəs bir ünvan canlanır.

Zabit yolboyu söhbətinə davam edərək deyir ki, əsas məqsədimiz bizə etibar edilən əraziləri göz bəbəyi kimi qorumaq və tabeliyimizdə olan döyüşçüləri qarşıdakı döyüşlərə hazırlamaqdır. "Son vaxtlar hava şəraitinin tez-tez dəyişməsinə baxmayaraq əsgərlərimiz döyüş növbələrində ayıq-sayıqdırlar. Hər kəs burada öz xidməti məsuliyyətini dərindən hiss edir və yaxşı bilir ki, Azərbaycan xalqı onların mətinliyinə güvənir. Əsgərlərimizin hazırlığına söz ola bilməz, ürəkləri Vətən adlı müqəddəs bir sevginin ünvanıdır. Məncə, doğulduğu yurdu, üzərində boy atıb yaşadığı torpağı müqəddəs varlıq sayan əsgərin döyüş əzminə söz ola bilməz."

(Ardı 4-cü səhifədə)



Əlahiddə Ümumqoşun Ordu döyüş tapşırıqlarını layiqincə yerinə yetirməyə hər an qadirdir

3-cü səhifədə



"Açıq qapı" günündən təəssüratlar

5-ci səhifədə



"Qəhrəmanlıq - ölümü göz önünə alıb döyüşə atılmaq"

6-cı səhifədə



"Əsgərlərimizə qulluq etmək hər birimiz üçün şərəfdir"

8-ci səhifədə

# Cəbhəboyu zonada daha bir yeni hərbi hissə istifadəyə verilib



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, yeni tikilən növbəti hərbi hissənin açılışı olub.***

Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yeni inşa edilən hərbi şəhərciyin ərazisindəki qərargah, əsgər yataqxanaları, yeməkxana, qazanxana-camaşırxana kompleksi, ərzaq anbarı, tibb məntəqəsi, sıra meydanı və digər obyektlər ilə tanış olub.

Şəxsi heyət qarşısında çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirib: "Bu günlərdə Silahlı Qüvvələrin Ali Baş Komandanı hərbçilər üçün əhəmiyyətli olan iki mühüm obyektin açılışını etdi. Bu gün də biz növbəti hərbi hissənin açılışını edirik. Bütün bunlar Ali Baş Komandanın Silahlı Qüvvələrdə həyata keçirdiyi islahatların bariz nümunəsidir.

Ali Baş Komandan bütün istiqamətlərdə islahatlar həyata keçirir və biz artıq bu islahatların nəticələrini görürük. Ordunun silahlanmasına ən müasir, aparıcı dövlətlərin istehsalı olan yeni silahlar, sursatlar, avadanlıq və texnikalar qəbul edilir. Silahlı Qüvvələrin sosial bazası möhkəmlənir, şəxsi heyət üçün yeni şəhərciklər istifadəyə verilir. Onlara xidməti yüksək səviyyədə təşkil etmək üçün bütün şərait yaradılır. Artıq bu il bir neçə hərbi hissənin açılışını həyata keçirmişik. Bunların hamısı torpaqlarımızın işğaldan azad edilməsi vəzifəsinin yerinə yetirilməsi üçün Silahlı Qüvvələrin döyüş hazırlığının yüksək səviyyədə olması məqsədilə görülən işlərdir.





Aprel döyüşləri zamanı torpaqlarımızın bir qisminin işğaldan azad edilməsində biz Silahlı Qüvvələrimizin döyüş ruhunu, döyüş qabiliyyətini və gücünü gördük. Cənab Ali Baş Komandan, "biz imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaransın" fikrini dəfələrlə vurğulayıb. Biz də Prezidentin və Azərbaycan xalqının etimadını doğrultmaq üçün əlimizdən gələni edib torpaqları işğaldan qısa bir müddətdə azad edəcəyik.

Bir daha sizi təbrik edir, xidmətinizdə uğurlar arzulayıram."

Şəxsi heyət təntənəli marşla tribunanın önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib.

Nazir hərbi hissədə çalışan mülki işçilərlə görüşərək şəxsi heyətin təminatı ilə bağlı müvafiq göstəriş və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə naziri cəbhə bölgəsindəki hərbi hissələrdə aparılan tikinti işlərinin gedişini yoxlayıb



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, yeni hərbi hissələrdə tikinti-inşaat işləri davam edir.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhəboyu zonada olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov tikilməkdə olan hərbi şəhərciklərə baş çəkərək inşaat işlərinin keyfiyyəti ilə maraqlanıb. Müdafiə naziri inşa edilən qərargahlar, yataqxanalar, döyüş texnikası üçün saxlanclar, sıra meydanları, yeməkxanalar, tibb məntəqələri, digər xidməti, inzibati bina və qurğularda, eləcə də hamam-camaşırxana-qazanxana komplekslərində gedən tikinti işləri ilə tanış olub, müvafiq tapşırıqlar verib.



# Əlahiddə Ümumqoşun Ordu döyüş tapşırıqlarını layiqincə yerinə yetirməyə hər an qadirdir



***Azərbaycanda dövlət və ordu quruculuğu prosesi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanıb. 1991-ci il sentyabrın 7-də Sovet ordusunun burada yerləşən hərbi hissəsinin bazasında Naxçıvan Müdafiə Komitəsi yaradılıb, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" qərar qəbul edilib. Həmin il oktyabrın 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilib.***

1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı hərbi hissəyə təhvil verilib. Ümummilli lider Heydər Əliyev həmin dövrü xarakterizə edərək deyib: "1990-1991-ci illərdə Naxçıvanın torpaqlarını qorumaq, Ermənistanın hərbi təcavüzünə cavab vermək üçün bizim ilk addımlarımızdan biri Naxçıvanda Müdafiə Komitəsi yaratmaq oldu. Bununla da biz Naxçıvanda mütəşəkkil Silahlı Qüvvələr yaratmaq prosesinə başladıq".



Tarixdən də görürük ki, güclü dövlətlərin hər biri, adətən, müstəqilliyinin ilk illərində müəyyən sınaqlarla qarşı-qarşıya qalırlar. Maraqlıdır ki, bu sınaqlar həm də həmin dövlətlərin güclənməsi yolunda yeni mərhələnin başlanmasına rəvac verir.

Bu gün regionun ən qüdrətli dövləti olan Azərbaycan da müstəqilliyinin ilk illərində çox ciddi çətinliklərlə qarşılaşıb. Həmin illərdə anarxiya, siyasi hərc-mərclik və özbaşınalıq hökm sürüb. Yaranmış xaotik vəziyyətdən istifadə edən xarici və daxili düşmənlər daha da fəallaşıblar. Ölkəmizdəki ayrı-ayrı silahlı qruplaşmalar isə düşmənə qarşı müqavimət göstərmək əvəzinə, ayrı-ayrı şəxslərin maraqlarına xidmət ediblər. Vahid komandanlığın olmaması vəziyyəti daha da ağırlaşdırıb. Belə bir vəziyyətdə ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə Naxçıvandan Bakıya - ali hakimiyyətə qayıdıb. Mövcud silahlı birləşmələri vahid komandanlıqda birləşdirib. Ciddi struktur və kadr dəyişiklikləri həyata keçirib. MDB qoşun hissələrində xidmət edən azərbaycanlı zabitlərin Vətənə qayıtması təmin olunub. Bununla da, ordu quruculuğunda yeni mərhələnin əsası qoyulub.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin dinamik inkişafı ordumuzun büdcəsinin artmasına və nəticə etibarilə güclənməsinə şərait yaradıb. Ölkə başçısının xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib, hərbçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Müasir döyüş texnikaları ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələri hazırda yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdir.

Ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Ali Baş Komandan İlham Əliyev Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il dekabrın 18-də imzaladığı fərmana əsasən, Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə birlikdə Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaranıb.

Ölkə Prezidenti İlham Əliyev Əlahiddə Ümumqoşun Ordunun yaradılması barədə danışarkən deyib: "Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır."

Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikadakı ordu, birləşmə və hissələri müasir silah və texnika ilə təmin olunub, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyəti xeyli gücləndirilib. Qədim hərbi ənənələrə və mübarizə tarixinə malik olan Naxçıvan bu gün etibarlı müdafiə olunur.

İstənilən halda hər bir ordunun gücü iki şəraitdə müəyyən edilir. Birincisi, müharibədə, digəri isə genişmiqyaslı hərbi təlimlərdə. Bu il iyunun 20-də Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun döyüş atışlı taktiki təlimində də muxtar respublika ərazisindəki ordu, birləşmə və hissələrin döyüş qabiliyyətinin, eləcə də şəxsi heyətin peşəkarlığının yüksək səviyyədə olduğu bir daha öz təsdiqini tapıb.



Təlimdən sonra şəxsi heyətlə görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov deyib: "Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Əlahiddə Ümumqoşun Ordu və Silahlı Qüvvələrimizin muxtar respublikadakı digər birləşmə və hissələri böyük təşkilatlanma və quruculuq yolu keçmiş, şəxsi heyət peşəkarlığını artırmışdır. Ordunun döyüş qabiliyyətinin və şəxsi heyətin peşəkarlığının artırılmasında hərbi təlimlərin mühüm rolu var. Torpaqlarımızın işğal altında, ölkəmizin isə müharibə şəraitində olması hərbi təlimlərin planlı keçirilməsini, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin yüksəldilməsini zərurətə çevirib. Bugünkü hərbi təlimlər bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı uğurla yerinə yetirmək qüdrətindədirlər. Bu isə müasir ordu üçün ən vacib keyfiyyətdir."

Bu gün hər birimiz Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edirik. Ordumuzun aprelin əvvəllərində düşmənin təxribatlarının qarşısını almaq üçün həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar hər birimizdə qürur hissi yaradıb. Müstəqil Azərbaycanın inkişafı, ordumuzun qüdrəti və ölkəmizdə xalq-ordu birliyinin möhkəmliyi deməyə əsas verir ki, Silahlı Qüvvələrimiz işğal altındakı torpaqlarımızı geri qaytarmaq qüdrətindədir. Muxtar respublikanın hakim yüksəkliklərində etibarlı müdafiə sistemi quran Əlahiddə Ümumqoşun Ordu da düşməni nəzarətdə saxlayır və istənilən təxribatlara adekvat cavab verir. Ətrafdakı ərazilərə nəzarət edən Əlahiddə Ümumqoşun Ordu bu gün bütün döyüş tapşırıqlarını layiqincə yerinə yetirməyə tam qadirdir.

**Rauf ƏLİYEV,**
**AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosunun rəhbəri**

# Müharibə veteranları Roma Papasına müraciət edib

***Faşizm üzərində Qələbənin 70 illiyindən təxminən iki həftə sonra İrəvanın mərkəzində Hitlerin əlaltılarından olmuş və nasistlərin bəşəri cinayətlərində bilavasitə iştirak etmiş Qaregin Njdeyə təmtəraqla abidə qoyulması bütün dünyada kəskin reaksiya doğurdu. Həm də qatı türk düşməni kimi ad çıxarmış nasist Njdenin kim olduğunu II Dünya müharibəsi illərində erməni legionerləri arasında təbliğ etdiyi şüar da göstərir: "Kim Almaniya uğrunda ölürsə, o, Ermənistan uğrunda ölür." Maraqlıdır ki, bu erməni faşistinə abidənin açılış mərasimində dövlət başçısı Serj Sarkisyan şəxsən iştirak etmişdi.***

Azərbaycan Respublikasının II Dünya müharibəsi veteranları da mahiyyət etibarilə Ermənistanda dövlət səviyyəsində faşistlərin reabilitasiyasına yönəlmiş bu addımı pisləyən bəyanatla çıxış etmişdilər.

Azərbaycan Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev və bir qrup veteran İrəvanda rəsmi səfərdə olmuş Roma Papası Fransiskə müraciət edərək Ermənistanda yenidən baş qaldırmış faşizm təzahürlərinə münasibət bildirməyi xahiş edib.

Faşizm üzərində Qələbənin 70 illik yubileyi ərəfəsində Hitler nasizminin əlaltılarının Ermənistan tərəfindən qəhrəman kimi qələmə verilməsinin çox ciddi narahatlıq doğurduğunu hələ keçən il bəyan etdiklərini bildirən təşkilat üzvləri ürək ağrısı ilə Papanın diqqətinə çatdırırlar ki, Ermənistan SS cəza legionunun rəhbərləri Drastamat Kanayanı (Dro) və Qaregin Ter-Arutunyanı (Njde) təmizə çıxarmaq üçün bütün vasitələrdən istifadə edir.

Müraciətdə, həmçinin, deyilir: "Bu gün dünya faşizmin hər hansı təzahürlərini pisləyir. 2015-ci il dekabrın 17-də BMT Baş Məclisi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsinə, neonasizmə və irqçiliyin müasir formalarının yayılmasına, irqi ayrı-seçkiliyə, ksenofobiyaya və onunla bağlı dözülməzliyə qarşı mübarizə" adlı Qətnamə qəbul edib. Həmin sənədin 4-cü bəndində qeyd olunur ki, BMT Baş Məclisi "nasizm hərəkatının və neonasizmin üzə çıxarılması məqsədilə kütləvi nümayişlər keçirilməsi, eyni zamanda, antihitler koalisiyasına qarşı mübarizə aparmış və nasizm hərəkatı ilə əməkdaşlıq etmiş belə şəxslərin milli azadlıq hərəkatlarının iştirakçıları elan edilməsi və ya elan etmək cəhdləri vasitəsilə məşhurlaşdırılmasına görə dərin narahatlığını bildirir."

Bu Qətnaməyə qoşulmuş Ermənistanda isə faşist rejiminə sadiqliyə and içmiş şəxslərin ətrafında genişmiqyaslı pərəstiş ab-havası yaradılır. Halbuki onlar milyonlarla insanın, o cümlədən erməni xalqının özünün nümayəndələrinin ölümünə bais olublar".

Beynəlxalq birlik tərəfindən buna hər hansı şəkildə münasibətin bildirilmədiyinə heyrətini gizlətməyən veteranlar bildirirlər ki, Ermənistanda nasist canilər Dronun və Njdenin şərəfinə xatirə sikkələri zərb edilməsini, filmlər çəkilməsini başa düşmək mümkün deyil: "Yerevanda bir meydana və metronun bir stansiyasına Qaregin Njdenin adı verilib. Drastamat Kanayanın adını daşıyan küçə də var. İndi İrəvanın mərkəzində, hökumət binaları kompleksi və Ermənistanın hakim partiyasının qərargahı ilə yanaşı, Njdenin heykəli də ucaldılıb. Məgər bu, həlak olanların xatirəsinin təhqir edilməsi deyilmi?! Məgər bu, faşizm qurbanlarına həyasızcasına hörmətsizlik deyilmi?!"

Faşizmə qarşı müharibənin bütün ağrı-acılarını görmüş, döyüşlərdə yoldaşlarını itirdikləri üçün indi nasist canilərin qəhrəmanlar kimi təqdim olunmasını ürək ağrısı ilə qeyd edən veteranlar Ermənistan tərəfindən yayılan faşist ideologiyasının nümunəsində ümumi şərə qarşı səylərini əsirgəməməsini, nasist canilərə bəraət qazandırılması və onları şöhrətləndirmək cəhdlərinin qarşısının alınması, o cümlədən Hitlerin əlaltısı, faşist ordusunun generalı Qaregin Njdenin heykəlinin sökülməsi məqsədilə Ermənistan rəhbərliyinə təsir göstərməsini Papa Fransiskdən xahiş etmişlər.

**"Azərbaycan Ordusu"**

# Əsgərin gücü vətənpərvərliyindədir

**(Əvvəli 1-ci səhifədə)**

Səngər xətti ilə gedirik, mühəndis-istehkam işləri burada da yüksək tələblərə cavab verir. Bu tədbirlərin təhlükəsizlik baxımından dəyəri böyükdür. Döyüşçülər yaxşı bilirlər ki, təhlükəsizlik qaydalarının pozulması bölmənin ümumi fəaliyyətinə zərər vura bilər.

Qürurlu görkəmi ilə ilk baxışdan xoş təsir bağışlayan əsgər özünü təqdim edir:

- Qumbaraatan Amin Əmiraslanov. Orduya Masallı rayonundan çağırılmışam, bir ilin əsgəriyəm.

Cəbhə xəttindəki son vəziyyəti soruşduqda əsgər bildirir ki, düşmən tərəfindən atəşkəsin pozulması faktı döyüş növbəsində qeydə alınmayıb. Vətənə bir övlad haqqını ödəməkdən qürurlu olduğunu dilə gətirən əsgər deyir:

- Vətəni sevmək azdır, onun uğrunda hər addımda fədakarlığa hazır olmalıyıq. Hərbi xidmətə gəldiyim ilk gündən torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanacağıma söz vermişəm.



Hər dəfə ön xəttə ezamiyyətə gələndə Amin kimi vətənpərvər, ürəklərində tükənməz Vətən sevgisi olan oğullarla görüşüb söhbətləşməkdən qürur duyuram. Qoy, xalqımız tam əmin olsun ki, bu gün torpaqlarımızı Vətənə bağlı ürək sahibi olan gənclərimiz qoruyurlar.

Hərbi xidmətə Neftçala rayonundan gəlmiş əsgər Sadiq Hüseynov da Amin kimi düşünür. Deyir ki, Vətəni düşməndən qoruyan oğulların sırasında olmaq böyük şərəfdir. "Həmişə vətənpərvərlikdən söz düşəndə Mübariz, Fərid, Samid... kimi oğullarımızı özümə ideal sanıram. Bu gün bir çox igidlər aramızda olmasa da, onların ruhu daim bizimlədir. Hər birinin ömür yolu, vətənpərvərliyi bizə örnəkdir."

- Bayaq əsgər yoldaşım vətənpərvərliyin nə demək olduğu barədə danışdı. Mənə elə gəlir ki, qorxu bilmədən torpaqların keşiyini çəkən əsgər Vətəni əsl övlad məhəbbəti ilə sevib əzizləyir, - deyə əsgər Kamran Məmmədov da fikirlərini bölüşür. - Yurd-yuvası yağıların tapdağında olan soydaşlarımızı düşünəndə düşmənə nifrətim daha da artır. Ermənilər zaman-zaman xalqımıza qarşı vəhşiliklər törədiblər. Buna görə də düşmənə qarşı amansız olmalı, hər an ürəyimiz intiqam hissi ilə döyünməlidir. Hazırda bacarıqlı, təcrübəli komandirlərimizin köməyi sayəsində silah və hərbi texnikaların sirlərini öyrənir, döyüş vərdişlərinə yiyələnirik. Hazırlıqlı olmağımız bizi düşmən üzərində qələbəyə ruhlandırır.

Göründüyü kimi, döyüş növbəsində Vətənimizin müdafiəsində dayanmış və müxtəlif bölgələrdən olan gənclərimizi bir müqəddəs amal - torpaqlarımızın tezliklə işğaldan azad edilməsi düşündürür. Ordumuzun şəxsi heyətinin vətənpərvərliyi yüksəkdir. Onlar Ali Baş Komandanın hər əmrinə hazırdırlar.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu",
fotolar
Mahmud MÖHBALIYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edirlər

İyunun 29-dan iyulun 10-dək Konstanta şəhərində (Ruminiya) "Avrasiya Tərəfdaşlığı" proqramı çərçivəsində dalğıc hazırlığı tədbiri keçirilir.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

## Böyük Britaniya Silahlı Qüvvələrinin nümayəndə heyəti Azərbaycanda səfərdədir

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Silahlı Qüvvələri arasında ikitərəfli əməkdaşlıq planına əsasən, 160-cı briqadanın komandiri briqada generalı Martin Qambelin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir.

Səfər çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) və sülhməramlı taborlarında keçirilən görüşlərdə britaniyalı nümayəndə heyətinə Silahlı Qüvvələrimizin müxtəlif ordularla qarşılıqlı əməliyyat uyarlılığının əldə edilməsi, həmçinin sülhməramlı əməliyyatlara töhfəsi ilə bağlı ətraflı məlumat verilib.

Görüşdə Azərbaycan Silahlı Qüvvələrinin Böyük Britaniyanın 160-cı briqadası ilə ƏİK proqramı və sülhməramlı əməliyyatlar çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə edilib.

Britaniyalı nümayəndə heyəti ƏİK və sülhməramlı taborların xidmət yerləri, onlar üçün yaradılan sosial-məişət və təlim şəraitləri ilə tanış olub.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən general Martin Qambel hər iki ölkənin Silahlı Qüvvələri arasında əməkdaşlığın gücləndirilməsi üçün geniş potensialın olduğunu bildirib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 iyul 2016-cı il.***
Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 4 dəfə pozub.

Füzuli rayonunun Qorqan kəndi yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Valideyn sözü*

# "Açıq qapı" günündən təəssüratlar

***"Açıq qapı" günü cəmiyyətdə xoş ovqat yaratdı. Ata-analar oğullarının xidmət elədiyi hərbi hissələrdə əsgərlərə yaradılan şəraitlə yenə də yaxından tanış ola bildilər. Həmin gün həm də Silahlı Qüvvələr Günü idi. Cəbhə xəttinə ezam edilən əməkdaşımız valideynlərlə söhbətləşib...***



**Lələkişi Hüseynov (Bərdə rayonu):** Əslimiz Laçın rayonunun Şamkəndindəndir. 87 yaşım var. Laçın işğal edildikdən sonra Bərdədə məskunlaşmışıq. Nəvəm Ziyadxanın, onun əsgər yoldaşlarının bayramını təbrik etməyə gəlmişəm. Bu gün ordumuzun yarandığı gündür. Bu gün həm də bütün hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilir. Ziyadxan qız nəvəmdir. Laçını görməsə də, o yerlər haqqında ata-anasından, qohum-əqrəbadan çox eşidib. Əslinə-kökünə bağlı övladdı. Uşaq olanda maraqlanardı ki, biz niyə öz ata-baba yurdumuzdan çıxıb gəlmişik, oralara nə vaxt qayıdacağıq? Belə sualları çox verərdi. Dediyimiz hər kəlmə, hər söz onun yaddaşına hopub. Qızımgil Beyləqanda məskunlaşıblar. Fəxr edirəm ki, Ziyadxan mərd, qorxmaz, vətənpərvər oğuldu. Komandirləri onun xidmətindən razılıq edirlər. Deyirlər ki, məsuliyyətlidi, işinə vicdanla yanaşır. Mən bir baba kimi inanıram ki, sabah Ali Baş Komandanımızın "Döyüşə!" əmri olarsa, Ziyadxan öndə gedən əsgərlərimizdən olacaq. Oğul Vətən üçün, Vətəni qorumaq üçün doğulur.

Ziyadxanın atası İsgəndər Əliyev ermənilərin bizim ərazilərimizə hücumlara başladığı vaxtdan bütün cəbhə boyu döyüşlərdə iştirak edib. Qarabağ müharibəsi veteranıdır. Torpaq itkisi ağır dərddir. Mən də Laçının həsrətilə yaşayıram. Ordumuz güclüdür. İnanıram ki, dövlət rəhbərimiz İlham Əliyevin sayəsində, xalqımızın göstərdiyi birliyin gücü ilə Azərbaycan əsgəri erməniləri torpaqlarımızdan tezliklə çıxardacaq, biz doğma yurdumuza qayıdacağıq.

* * *

**Nəzifə Quliyeva (Goranboy rayonu):** Oğlum Toğrul Quliyev üç aydır hərbi xidmətdədir. Hərbi hissə ilə tanışlığımız birinci dəfə oğlumun andiçmə mərasimində olmuşdu. Burada əsgərlərimiz üçün çox gözəl şərait yaradılıb. Böyük yeməkxanası, tərtəmiz yataqxanaları var. Adamın ürəyi açılır. Sağ olsun Prezidentimiz. Əsgərlərimizə bu cür gözəl şərait yaradıb.

Biz əslən Xocalı şəhərinin Meşəli kəndindənik. O ağır günlərin, faciələrin canlı şahidiyəm. Kəndimiz ermənilərin daim hücumlarına məruz qalırdı. Onların silahları çox idi...

Bu gün çox güclü ordumuz var. Toğrulun nənəsi, babası, bir əmisi (o zaman milis dəstələrində döyüşürdü) 25-dən 26-na keçən gecə Xocalı faciəsində şəhid oldular. Toğrul o hadisələri görməsə də, ata-anasının, qohumlarının yaşadığı faciələrdən xəbəri var. Baş verən faciəni böyüklərdən soruşub, eşidib. Hər şey yaddaşındadı. Düşməndən ata-babalarının qisasını almağa hər an hazırdır. Biz onu Vətənə əsl övlad kimi böyütmüşük. Ailəmiz Goranboy rayonunun Ağcakənd kəndində Meşəli qəsəbəsində məskunlaşıb. Həyat yoldaşım İbrahim Quliyev döyüşlərdə iştirak edib. Milli münaqişə zəminində II qrup Qarabağ əlilidir. Bu gün həyat yoldaşımla, qızımla birlikdə "Açıq qapı" günündə iştirak etməyə gəlmişik. Mən bütün hərbçilərimizi bayram günü ilə əlaqədar təbrik edir, onlara cansağlığı arzulayıram.



* * *

**Samir Səlimov (Ağcabədi rayonu, Xocavənd kəndi):** Mən fəxr edirəm ki, bu gün qardaşım Ehtiram Səlimov Vətənimizə, xalqımıza layiqli övlad kimi ordumuzun sıralarında xidmət edir. Hərbi hissədə əsgərlərimiz üçün yaradılan şərait dünyanın ən müasir ordularında var. Bütün hərbi hissələrdə belə yüksək səviyyədə şəraitin yaradılması respublikamızın Prezidenti, Ali Baş Komandanımızın orduya diqqətinin nəticəsidir. Müdafiə naziri tez-tez cəbhə bölgələrində hərbçilərimizlə görüşür, onlarla söhbətlər aparır, xidmətdə fərqlənənlərə mükafatlar verir. Bütün bunlar hər bir Azərbaycan vətəndaşını sevindirir, Ali Baş Komandanımızla, Müdafiə nazirimizlə qürur duyuruq. Qardaşım xidmət etdiyi az vaxt olsa da, hərbi hissə komandiri tərəfindən evimizə təşəkkür məktubları göndərilib. Əsgərlərimizə arzu edirəm ki, Vətənimizin keşiyində ayıq-sayıq dayansınlar, hərbi anda sadiq qalıb xidmətlərini vicdanla başa vurub evlərinə sağ-salamat dönsünlər. Bütün hərbçilərimizi Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirəm.



**Hazırladı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Mahmud MÖHBALIYEVİNDİR**

# Frank-Valter Ştaynmayer:
## İstəyirik ki, Dağlıq Qarabağ münaqişəsi konstruktiv şəkildə həll olunsun

***Aprel hadisələrindən sonra bizə kompromis və təkliflər daha çox lazımdır. İstəyirik ki, Dağlıq Qarabağ münaqişəsi konstruktiv şəkildə həll olunsun. Münaqişəni həll etmək üçün prezidentlərin görüş imkanlarından istifadə etməli, atəşkəsin bərpası və saxlanması məqsədilə ciddi müzakirələr aparmalıyıq.***

Bu fikirləri ATƏT-in fəaliyyətdə olan sədri, Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayer iyunun 30-da azərbaycanlı həmkarı Elmar Məmmədyarovla keçirdiyi mətbuat konfransında bildirib.

"ATƏT həmişə başa düşüb ki, Dağlıq Qarabağ münaqişəsi təhlükəlidir. Münaqişənin gələcəyi ilə bağlı heç nə sığorta olunmayıb. Biz stabilləşmə ilə bağlı nəticəyə gəlməli, regionda sülh yaratmalıyıq", - deyə Frank-Valter Ştaynmayer qeyd edib. ATƏT-in fəaliyyətdə olan sədri atəşkəs rejiminin möhkəmlənməsi üçün lazımi tədbirlər görüləcəyini diqqətə çatdırıb.

Nazir Azərbaycanın Cənubi Qafqaz regionunda güclü oyunçu olduğunu vurğulayıb.

# Fransa parlamentində ermənipərəst deputatların məyusluğu

***Fransa Milli Assambleyasının xarici məsələlər üzrə komitəsinin iyunun 29-da keçirilmiş iclasında Fransa ilə Azərbaycan arasında ikitərəfli siyasi, iqtisadi və diplomatik münasibətlərə dair xüsusi araşdırma komitəsinin yaradılması məsələsinə dair müzakirə aparılıb.***

Bu təklif Milli Assambleyanın mərkəzçi UDİ (Demokrat və Bitərəflərin Birliyi) qrupunun üzvləri, başda ermənipərəst mövqeyi ilə tanınan Fransua Roşbluan, Tyeri Benua, Şarl de Kurson və digər deputatlar tərəfindən irəli sürülmüşdü.

Məsələ ilə bağlı çıxış edən deputat Elizabet Giqu bu təklifin hüquqi cəhətdən qəbul edilə bilməsinin qeyri-mümkün olduğunu, onun qeyri-müəyyən formada tərtib edildiyini, komitənin qayda və prosedurlarına uyğun gəlmədiyini söyləyib. O, həmçinin Fransanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik edən Minsk Qrupunun həmsədr ölkəsi olmasını əsaslandıraraq rəsmi Parisin belə məsələlərdə bitərəf qalmasının zəruriliyini vurğulayıb.

Müzakirələr zamanı çıxış edən xarici məsələlər üzrə komitənin üzvlərinin əksəriyyəti belə bir təklifin qəbul edilməsini Fransanın Ermənistan-Azərbaycan münaqişəsinin həllindəki vasitəçi roluna kölgə sala biləcəyini bildiriblər. Onlar, həmçinin Fransa ilə Azərbaycan arasında ticarət dövriyyəsini qeyd edərək bu təklifin sıx iqtisadi əlaqələrə mənfi təsir göstərə biləcəyini vurğulayıblar.

Fransua Roşbluan irəli sürdüyü təklifinin müdafiəsi üçün ayrılmış çıxışında Azərbaycana qarşı əsassız ittihamlar irəli sürməyə, hər vəchlə bu təklifi keçirməyə cəhd göstərsə də, sonda səsvermə zamanı təklif rədd edilib və qəbuledilməz elan olunub.

AZƏRBAYCAN ORDUSU

## Ordu və cəmiyyət

# "Qəhrəmanlıq - ölümü göz önünə alıb döyüşə atılmaq"

*Rubrikamızın qonağı Akademik Milli Dram Teatrının aktyoru, xalq artisti Nurəddin Mehdixanlıdır.*



Respublikamızın tanınmış teatr sənətçisi söhbətinə xalq şairi Zəlimxan Yaqubun misraları ilə başlayır:

Ordum varsa, yurdum var,
Ordum yoxsa, yurdum yox.

İnsan Vətənsiz olmaz. Quşun da yuvası var. Quş da öz yuvasını, öz balasını qorumaq üçün mübarizədədir. İnsanın yuvası Vətənidir, doğulduğu torpaqdır, əjdadlarımızın müqəddəs ruhudur, əslində, bizi bu torpağa bağlayan. Çünki onlar bizim nəslimizdi, dədəbabalarımızdı. Biz onlara sahib çıxanda bu günümüzün də sahibi ola bilərik, sabahımızın da.

Məşhurlardan biri deyib ki, öz ordusuna sahib çıxmayan xalq özgə ordulara xidmət etmək məcburiyyətində qalacaq. Bu gün Azərbaycan Ordusu milli təhlükəsizliyimizin təminatçısıdır. Bu gün Azərbaycan Ordusu torpaqlarımıza göz dikənlərin qarşısında polad sipərdir. Bugünkü Azərbaycan Ordusu dünyanın öndə gedən orduları sırasında adı çəkilən hərbi gücdür. Və bu mənada çox sevinirəm ki, ordumuz bu yüksək pilləyə çatıb, belə güc sahibidir. Bu, Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu dövlət və ordu quruculuğu siyasətinin nəticəsidir. Müdafiə Nazirliyi sistemində, hərb sistemində dövlət rəhbərinin göstərişlərinin dəqiqliklə yerinə yetirilməsi hesabına bu gün Azərbaycan Ordusu dünyada tanınır. Geniş mənada götürsək, xalqın ordusu təkcə silahlı gənclərdən ibarət deyil, onun bütün fiziki və intellektual gücü ordusu ilə bir olmalıdır. Elm, təhsil, səhiyyə, idman, mədəniyyət, iqtisadiyyat və digər sahələrdə çalışan insanlar ölkənin ordusunun sıra nəfərləridir. Bir tərəf cəmiyyətin fiziki kamilliyinə çalışır, digər tərəf isə mənəvi kamilliyi inkişaf etdirir. Yəni, gücün yanında ağıl varsa, güc səmərəli, faydalı gücdür."

Hər bir sənət adamını, ölkənin hər bir vətəndaşını ordunun sıra nəfəri hesab edən xalq artisti qürurla danışdı.

Nurəddin müəllim ön xətdə yerləşən hərbi hissələrdə əsgər və zabitlərimizi vaxtaşırı ziyarət etməsindən söhbət açdı: "Ön xəttə, səngərə dəfələrlə getmişik. Şəhidlərimizin, qəhrəmanlarımızın bir vaxtlar xidmət etdikləri mövqelərə qədər gedib çıxmışıq. Bilirsiz, əsgər orada bir şairi, aktyoru, söz, sənət adamını görəndə necə sevinir. Yəni hiss edir ki, səngərdə düşmənlə üz-üzə tək deyil, onun yanında qəlbi Vətənlə, əsgərlə döyünən insanlar var.

Bizim ailədə qardaşlarım hərbçidirlər. Onların arasında bu gün xidmət edəni də, tərxis olunanı da var. Kişi Vətənini qoruyar. Ona görə də hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı imkanı çatdığı yerdə ordusuna dəstək olmalıdır. Ordusunun yanında olmaq xalqının, dövlətinin yanında olmaq deməkdir. Hər zaman Vətənimizi, ölkəmizi qoruyan əsgərlərimizin yanında olmalıyıq. Bu gün Azərbaycan Ordusu xalqımıza qanıyla, canıyla xidmət eləyir və göstərir ki, istənilən an bu torpağın uğrunda öldürməyi də bacarıram, şəhid olmağı da. Həmin əsgərin, zabitin yanında necə olmaya bilərsən? Gecə-gündüz səngərlərdə əsgərlərinin yanında olan, əsgəri ilə çörəyini, tikəsini bölən Müdafiə naziri ilə necə fəxr etməyə bilərsən? Müharibə şəraitində ön xəttə, səngərə gedən Ali Baş Komandanla necə fəxr etməyə bilərsən? Onların yanında necə olmayasan? Bizim həyatımızın təhlükəsizliyini, ölkənin, xalqın təhlükəsizliyini ordu qoruyur. Biz canımızla, qanımızla, övladlarımızla birlikdə o ordunun yanında olmağı bacarmalıyıq. 60 yaşım olsa da, kifayət qədər fiziki hazırlığım, silahlarla davranmaq bacarığım imkan verir ki, mən ordumun yanında olum. Hər gün, hər an onların yanında olmağa, istənilən anda torpaqlarımızın azadlığı uğrunda böyük sevgiylə, böyük həvəslə döyüşə getməyə hazıram."

Sonra sənətkar xalqımızın qəhrəman oğlu Mübariz İbrahimovun xidmət etdiyi hərbi hissəyə səfərlərindən bəhs etdi və o görüşün maraqlı anlarından danışdı: "Bu səfərdə xalq yazıçısı Anar, millət vəkilləri də var idi. Həmin hərbi hissədə əsgər və zabitlərlə görüş təşkil olundu. Əsgərlər bizi görəndə nə qədər sevindilər! Kaş ki, siz o əsgərlərin gözlərindəki sevinci görəydiniz. Mübarizin xidmət etdiyi postda olduq. Onun yatdığı çarpayısını, formasını və valideynlərinə yazdığı məktubu gördük. Bayrağımızın yanında böyüdülmüş fotoşəkli divardan asılmışdı. Mübarizin xatirə guşəsini yaradıblar. Hərbçilərimiz Mübarizin düşmən üzərinə getdiyi yolları, dərə-təpəni bizə göstərdilər. Əsgərlər fəxr edirdilər ki, Mübarizin xidmət etdiyi yerdə bu gün onlar xidmət keçirlər. Mübariz elə bir nümunə göstərdi ki, təkcə Azərbaycan əsgəri üçün deyil, bütün türk dünyası üçün bir fəxarət abidəsinə çevrildi. Belə nümunələr xalqımıza başucalığı gətirir, onu dünyada tanıdır. Qəhrəmanlıq ölümü göz önünə alıb döyüşə atılmaqdır. Bu, əslində, ölümün üstünə getməkdi. Ölümün gözünün içinə dik baxmaqdı. Bilirsən ki, sən bu savaşda öləcəksən, amma gedirsən o savaşa. Bax, bu qəhrəmanlıqdı. Mübariz də o qəhrəmanlıq nümunəsini göstərdi. Və Mübarizin o qəhrəmanlıq nümunəsinin təsiri idi ki, aprel döyüşlərində ordumuzun əsgər və zabitləri göz qırpmadan odun üstünə gedirdilər. Gedirdilər və ərazilərimizi işğal edən erməni qəsbkarlarını məhv edirdilər. Azərbaycan Ordusu düşmənin müdafiə istehkamlarını qısa vaxtda darmadağın etdi. Mübarizin valideynlərinin göstərdiyi nümunənin nəticəsi idi ki, tək oğlunu itirmiş şəhid atası deyir ki, "Vətən sağ olsun", "Təki Vətən yaşasın". Bütün bunlar şəxsi nümunədi. Vətən uğrunda yaranan belə mənəvi gücün qarşısında kimsə dayana bilməz."

Xalq artisti müasir Azərbaycan gəncləri ilə fəxr etdiyini və onlara güvəndiyini dedi:

- "Təki Vətən yaşasın" deyən xalqın torpağını işğal altında saxlamaq olmaz. Biz bilirik ki, bu torpaqlar tamamilə azad olunacaq. Övlad hər kəs üçün əzizdir. İstəmirik ki, kiminsə övladının başından bir tük belə əskik olsun. Amma bu torpağı da, bu yurdu da qoruyan övladlarımızdı. O övladlar böyüyür, tərbiyə alır, oxuyur, işləyir. Nədən ötrü? Ailəsinin, torpağının, xalqının, elinin-obasının şərəfini və dövlətini, bayrağını qorumaq üçün. Qoruyanda şəhid də olur, qazi də. Bu gün Azərbaycan Ordusu 20 il əvvəlki ordu deyil. Bu gün ordumuz dünyanın ən son hərbi texnologiyalarına sahib olan və onu ən yüksək səviyyədə idarə etməyi bacaran ordudur. Dünyanın ən müasir silahları Azərbaycan Ordusunda var. Bəli, Azərbaycan əsgəri və zabiti aprel döyüşlərində düşmənə gücünü göstərdi. Gün gələcək, Azərbaycan itirilmiş bütün torpaqlarına yenidən sahib olacaq. Bu gün böyük Vətən sevgisinə, güclü elmə, intellektə malik müasir Azərbaycan gəncliyi yetişib. 24 illik siperləri 2 saata yarıb keçən həmin o Azərbaycan gəncliyidi, Azərbaycan əsgəridi. Bu gün dünyanın elə bir inkişaf etmiş ölkəsi yoxdur ki, orada Azərbaycan gənci oxumasın, çalışmasın. Hələ aprel döyüşləri gedən zaman və ondan sonra da azərbaycanlı gənclər bütün Avropanı (orada təhsil alan və yaşayan gənclər nəzərdə tutulur - L.H.) üçrəngli Azərbaycan bayrağına bürüdülər.

Qarabağ dərdimizdən, Qarabağ arzumuzdan danışan sənətkar sonda gələcəyə inamlı, ümidli olduğunu bildirdi və dedi ki, Şuşa, Ağdam, Ağdərə, Laçın, Kəlbəcər, Qubadlı, Füzuli, Cəbrayıl, Xocalı, Zəngilan bizi gözləyir... Mən ordumla, xalqımla qürur duyuram. Biz dünyanın 18 imperiyasını qurmuş türk millətinin övladlarıyıq. Gözəl bir söz var: "Atın belindəki türk deyilsə, yükdü." Biz at belində qılınc qaldıranda da dünyanın o başından bu başına söz sahibi idik və bu gün də söz sahibiyik. Bəli, bu gün dünyada müstəqil, güclü, qüdrətli Azərbaycan dövləti var. Bu gün Azərbaycan gəncliyi keçmişini öyrənib əcdadlarını tanıyaraq yetişir. Dünyanın hərb tarixini bizim əcdadlarımız yaradıb. Biz Tanrının əsgərləri deyilən oğuz türkləriyik. Müasir Azərbaycan gəncliyi Cavanşiri, Babəki, Meteni, Atillanı, Məhəmməd Cahan Pəhləvanı, Şəmsəddin Eldəgizi, Qızıl Arslanı, Şah İsmayıl Xətaini, Cavad xanı tanıdıqca, Atabəyləri, dünya imperiyalarının qurucularından Uzun Həsəni, Nadir Şah Əfşarı öyrəndikcə, soykökünə, tarixi keçmişinə daha möhkəm bağlanır. Qarabağ müharibəsinin qəhrəmanları Mübariz, Fərid, Raquf, Samid, Murad və başqaları örnək daşıyıcılarıdırlar. Onlar özlərindən sonra böyük bir qəhrəmanlıq məktəbi yaratdılar.

Nurəddin müəllim söhbətini qan yaddaşımızla davam etdirməyi də özünə mənəvi borc bildi. "Xalqımız bir əsrdə nə qədər qurbanlar verdi: 1918-ci ildə, repressiya illərində (1920-1938), ikinci cahan savaşında, 20 Yanvar faciəsində, Xocalıda, Qarabağ müharibəsində. Bu faciələr xalqın mübarizə, var olmaq əzmini qıra bilmədi. Keçmişə, minilliyin əvvəlinə, ortalarına, dünənə, bu günə baxırsan, hər yerdə xalqımızın qəhrəmanlıq tarixinin izləri görünür. Bu gün ordumuzla bağlı elm, təhsil ocaqlarında görüşlər, tədbirlər keçirilir. Ordumuzun qəhrəman əsgər və zabitləri həmin tədbirlərə dəvət edilir, onların qəhrəmanlıqları yeniyetmələrə, gənclərə aşılanır."

Tanınmış aktyor son səfərlərindən də oxucularımıza məlumatlar çatdırdı. "Aprel savaşından sonra Akademik Milli Dram Teatrının rəhbərliyi belə bir təşəbbüslə çıxış etdi ki, biz kollektiv olaraq rayonlarda, bölgələrimizdə insanlarla görüşməliyik. Bizim Qarabağ mövzusunda "Xəcalət" adlı tamaşamız var. 10 ildir ki, həmin tamaşa repertuarımızdadır, 3 beynəlxalq mükafatın laureatıdır. Bu tamaşa ilə Azərbaycanımızın bölgələrinə səfərə çıxmışıq. Teatrımızın kollektivi İmişlidə, Saatlıda, Hacıqabulda, Ağsuda və digər rayonlarda oldu. Biz bu rayonlarda tamaşanı təkrar-təkrar göstəririk. Bu, ona görə idi ki, Qarabağ ağrılarımız hər zaman qan yaddaşımızda qalsın. Bu dərdə, bu ağrıya son qoyulmalıdı. Qarabağ uğrunda savaş hələ bitməyib. Azərbaycan əsgəri, Azərbaycan Ordusu torpaqlarımız uğrunda Ali Baş Komandanın döyüş əmrini gözləyir. Tamaşadan sonra insanlarla müzakirələr aparıb, fikirlərini öyrənirdik. Bu günlərdə Ağsuda rayon rəhbərliyinin, ictimaiyyət nümayəndələrinin, əhalinin iştirakı ilə möhtəşəm bir tədbirimiz oldu. Tamaşadan sonra zala toplaşanlar bildirirdilər ki, bu gün hər kəs xalqının, Vətəninin, ordusunun, dövlətinin və Ali Baş Komandanının yanındadır.

Cavad xan obrazının mahir ifaçısı qəzetimizin oxucuları olan əsgər və zabitlərimizə bu filmdən də danışmağı özünə borc bildi. "İkinci Dünya müharibəsi zamanı döyüşlər gedə-gedə filmlər çəkilirdi. İnsanlarda, döyüşçülərdə qələbə ruhu yaratmaq üçün yeni-yeni tamaşalar oynanılırdı, əsərlər yazılırdı. Mənən güclü olmayan fiziki gücünü də itirmiş olur. Hələ Sovet dönəmində ideoloji sistem var idi. Ordu təbliğ olunurdu, generallar, qəhrəmanlar, müharibə haqqında filmlər çəkilirdi. Bu amillər də əsgərlərin mənəvi-psixoloji tərbiyəsinə xidmət edirdi. Yadınızdadırsa, aprel döyüşləri zamanı "Cavad xan" filmi bütün televiziya kanallarında təkrar-təkrar göstərilirdi. Arada filmin nümayişi dayandırılaraq Ali Baş Komandanın ordumuzla, Silahlı Qüvvələrimizlə bağlı fikirləri, çıxışları səsləndirilirdi. "Cavad xan" filmi dövlət sifarişi və birbaşa cənab Prezidentin ayırdığı maliyyənin hesabına çəkilib. Qəhrəmanlıq mövzusunda filmlərimiz çox olmalıdır. "Dolu" kimi filmlərimiz çəkilməlidir. Bu filmlər Azərbaycan oğlunun, Azərbaycan əsgərinin qəhrəmanlığını göstərir. Cavad xan xalqımızın qəhrəman oğludur. O bilir ki, imperiya güclərinə qarşı savaşda məğlub olacaq, amma övladları ilə birlikdə bu savaşa çıxır. Onlar şəhid olurlar. Bax, bu qəhrəmanlıq məktəbinin yetirmələri 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini qurdular. Nəsil o nəsil idi... 1990-cı ildə rus tanklarının qarşısına çıxan Azərbaycan gəncliyi o nəslin davamçısı idi. Bu gün Azərbaycan Ordusu qəhrəmanlıq tarixini bilən və keçmişi ilə qürur duyan gənclərimizdən formalaşıb. Fəxr edirəm ki, bu ordu xalqımın hər zaman savaşa hazır olan ordusudur. Sülh istəyirsən, savaşa hazır olacaqsan. Bu gün dünyanın şüarı budur. Əbədiyyətə qədər var olacağıq. Üçrəngli bayrağımız qüdrətli əllərdədir."

Tanınmış aktyor söhbətinin sonunda Azərbaycan Ordusunun şəxsi heyətini bu günlərdə böyük təntənə ilə qeyd etdiyimiz Silahlı Qüvvələr Günü münasibətilə təbrik etdi.Əlində silah, barmağı tətikdə olan Vətən müdafiəçilərinə odlu ürək, titrəməyən əl, iti göz, əbədiyyətə qədər yurd sevgisi arzuladı.

**Söhbətləşdi:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Yağış yağacaq!



(esse)

Bu ilin yazı könül xoşluğuyla gəldi...
Buludlar sıxlaşır...
Göy üzü qaralır...
Şimşək çaxır...
Selləmə yağış yağır...
Dərələr selə darlıq eləyir...

Yağışa ovuc açarlar, hamı yağışa ürəyini açıb...

Məqamında yağan yağış çör-çöpü, yöndəmsiz kör-kötüyü, torpağa yük olan nə varsa, hamısını kürüyüb uzaqlaşdırır...

Yağışdan sonra hava təmizlənir, göy üzü üzə gülür. Gözəlləşir dünya. Bu yağışı arzulayanlar gözəlləşən göy üzünü gözlərinə köçürür, gözlərindən könlünə...

Yağış kəsər-kəsməz göyqurşağı görünür. Görən bir də baxır...

Ecazkar göyqurşağı - göyün ecazkar qurşağı urvatsız yükü kürünmüş torpağa sığal çəkir elə bil...

Təbiətdə belədi...

Cəmiyyətdə də belədi...

Məmləkət apreldə yağan yağışın intizarındadı. 23 ildi belə bir yağışı arzulayırdı. Arzulanan yağış məqamında yağacaq. Hamı o məqamın gəlişinin təşnəsidi...

O yağış məqamında yağacaq. Yağacaq və yer üzünə görk olacaq; kör-kötüyə, çör-çöpə yer verəsi deyil bu torpaq...

Apreldə şimşək çaxdı, yağış yağdı. Yağışdan sonra Cəbrayılda, Lələtəpədə hava elə gözəlləşdi ki! O gözəlliyi Azərbaycan əsgəri yetirdi Lələtəpəyə. Lələtəpədən üzü qarşı tərəfə baxanlar hiss eləyir ki, oralar da belə bir yağışın həsrətindədi.

Səngərdə əsgər umacaqlı baxışlarla göy üzünə baxır, "Kaş şimşək çaxaydı, yağış yağaydı..." - deyir. O biri əsgər əllərini ovuşdurur...

Bu yağışdan Lələtəpənin o üzünə də yağmalıdı...

Yenə şimşək çaxacaq, yenə yağış yağacaq...

Lələtəpədəydim. Azərbaycan əsgərlərinin baxışlarında şimşək qətiyyəti görürəm. O qədər doğma, o qədər munis, o qədər istəklidi ki! O doğma, o munis, o istəkli baxış-şimşəyin çaxacağı anı gözlədiyimiz günün doğum anı biləcəyik. "Hamının könlü bütün mənləkət boyu qürurumuzun zirvəsi olan Lələtəpədə pərvaz eləyir" - düşünürəm. Düşüncələrimdən üzülən misralar könlümü tellendirir:

*İnam zirvəsisən,*
*Lələtəpəmiz,*
*Səni bayraq edən*
*qollar görünür.*
*Sağın da, solun da*
*yollardı...*
*Burdan*
*Şuşaya aparan*
*yollar görünür!..*

Gözlər göy üzündən üzülmür. Şimşək çaxışı gözləyir, yağış gözləyir hamı...

Azərbaycan əsgərinin baxışlarında şimşək qətiyyəti var. O şimşək baxışlara sığışa bilmir; çırpındıqca çırpınır...

Yaxınlarda yağış yağacaq!

Məqamında yağan yağış çör-çöpü, yöndəmsiz kör-kötüyü, torpağa yük olan nə varsa, hamısını kürüyüb uzaqlaşdıracaq!

Yağışdan sonra göy üzünə yayılacaq göyqurşağı gözlərimizdən könlümüzə köçəcək...

Yaxınlarda yağış yağacaq!..

Yağış yağacaq!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

## Xəbərlər: hadisələr, faktlar

### Türkiyədə bir günlük matəm elan olunub



İyunun 28-də İstanbulun Atatürk Hava Limanında törədilmiş qanlı terror aktı ilə əlaqədar Türkiyədə bir günlük matəm elan olunub. İyunun 29-da bütün ölkədə və xaricdəki diplomatik nümayəndəliklərdə dövlət bayrağı yarıyadək endirilib.

Ən son məlumata görə, terror aktı nəticəsində 42 nəfər həlak olub, 238 nəfər yaralanıb. Həlak olanlardan 10-u xarici, 3-ü ikili vətəndaşlığı olan şəxsdir. Yaralıların 109-u evə buraxılıb. Hazırda 130 yaralı həkim nəzarətindədir.

### Rusiya Prezidenti türkiyəli həmkarı ilə telefonla danışıb



Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.

Rəsmi mənbələrə görə, prezidentlər arasındakı danışıq səmərəli keçib.

Xatırladaq ki, telefon danışığı Rusiya tərəfinin təşəbbüsü ilə baş tutub. Bu, ötən ilin noyabrında Su-24 təyyarəsinin vurulmasından sonra iki ölkə liderlərinin ilk birbaşa təmasıdır.

### Rumıniyada xilasetmə əməliyyatları üçün analoqu olmayan SUV avtomobili ixtira edilib



Rumıniyada bir qrup ixtiraçı xilasetmə əməliyyatlarında iştirak etmək üçün analoqu olmayan SUV avtomobili yaradıb.

Avtomobil qar və su maneələrini asanlıqla keçmək, yolsuz yerlərdə saatda 160 kilometr sürətlə hərəkət etmək imkanına malikdir. Üzərinə yanğın söndürmək üçün xüsusi qurğular olan avtomobilin salonuna 11 nəfər yerləşə bilər.

İxtira ilə məşğul olan "Ghe-O Motors" şirkətinin nümayəndələri maşının düzəldilməsi üçün 3 il sərf etdiklərini və tezliklə avtomobili satışa çıxaracaqlarını bildiriblər.

### Kabildə baş verən partlayış nəticəsində azı 27 nəfər həyatını itirib



Əfqanıstan hökuməti Kabil şəhəri yaxınlığında baş verən hücumda azı 27 nəfərin öldüyünü təsdiqləyib. Partlayış nəticəsində 40-dan çox insanın da yaralandığı bildirilir.

Versiyalardan birinə görə, kamikadze Kabil-Qəndəhar yolunda hərbçiləri daşıyan avtobusun yaxınlığında özünü partladıb. Həmçinin polislər yoldan keçən zaman eyni vaxtda iki partlayıcı qurğunun işə düşməsi barədə də məlumatlar yayılıb.

Hələlik, ölkədə fəaliyyət göstərən heç bir qruplaşma hadisənin məsuliyyətini üzərinə götürməyib.

### Xorvatiya Serbiya ilə sərhəddə metal sədd inşa edir



Xorvatiya hökuməti Serbiya ilə sərhəddə yerləşən Batina keçid məntəqəsində metal sədd inşa etməyə başlayıb. Bununla Xorvatiya hökuməti Serbiyadan bu ölkəyə qeyri-qanuni şəkildə keçmək istəyən emiqrantların qarşısını almaq niyyətindədir.

Məlumata görə, səddin hündürlüyü 2 metr olacaq. Təxminən 700 emiqrantın Serbiyadan Xorvatiyaya keçəcəyi gözlənilir.

**AZƏRTAC-ın**
**materialları əsasında**

## Gənc zabitlərimiz

# Uğur qazanmağın sirri

*Baş leytenant Şahin Dadaşov 1987-ci ildə Lənkəran rayonunun Boladi kəndində anadan olub. Peşə seçimində ailənin, mühitin rolu danılmazdır. Lənkəranın da mərd, mətin oğullarının xalqımızın qəhrəmanlıq tarixində öz yeri vardır. Bu ənənə Şahində erkən yaşlarından hərb sənətinə maraq yaradıb. Doğulduğu el-obanın hərb tarixinə verdiyi böyük xadimləri özünə örnək bilib. Vətəninə, millətinə layiqli zabit olmaq arzusu ilə böyüyüb. Elə bu istəklə də 2003-cü ildə sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verir. İlk hərbi vərdişlərə yiyələndikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2010-cu ildə artilleriya ixtisası üzrə hərbi təhsilə yiyələnir və cəbhə xəttində yerləşən "N" hərbi hissəsinə taqım komandiri təyin edilir.*



Zabit peşəsi ən müqəddəs və vacib peşələrdən biridir, çünki bu peşənin əsas mahiyyəti Vətəni qorumaqdan ibarətdir. Baş leytenant Şahin Dadaşov da hərb tariximizdə silinməz izlər qoyan soykökü ilə fəxr edərək, həyatda onlara layiq olmağı qarşısına məqsəd qoyub.

Gənc zabitə görə, hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur. "Bu gün ordumuz Cənubi Qafqazda ən güclü ordudur. İstənilən vaxt doğma torpaqlarımızı azad edə bilərik. Ölkəmizin Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan heç vaxt öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Aprel hadisələri zamanı ordumuz lazımi qədər hərbi gücə malik olduğunu sübuta yetirdi. İtkilərlə üzləşən düşmən dərk etdi ki, Azərbaycan böyük hərbi qüvvəyə malikdir."

Müsahibim bildirdi ki, zabit bütün xüsusiyyətləri ilə əsgərə nümunə olmalıdır. Əsgərlərin döyüş, mənəvi-psixoloji və fiziki hazırlığına xüsusi diqqət yetirməli, fərdi söhbətləşməni düzgün aparmalıdır. Savadlı zabitin tabeliyindəki bölmədə şəxsi heyət arasında bir doğmalıq, səmimi münasibət mövcuddur. Əsgərlərin ad günləri özünəxas şəkildə qeyd olunur. Xidmət müddəti başa çatmış əsgərlərinin toy məclislərində də dəfələrlə iştirak edib. Aprel hadisələri zamanı gənc komandirin telefonu bir dəqiqə belə susmayıb. Əsgərləri olmuş gənclər ordumuzun sıralarına yenidən qoşulmaq, əzəli torpaqlarımızın azad edilməsində yaxından iştirak etmək istəklərini, Vətən, torpaq uğrunda döyüşməyə, şəhidlərimizin qisasını almağa hazır olduqlarını bildiriblər.

Həmsöhbətimin qardaşı Səbuhi də Silahlı Qüvvələrimizin zabitidir. Şahin söhbətimizdə bunu böyük iftixar hissi ilə bildirdi. Silahdaşları Mirmanaf Rzayev, İlkin Orucov, Ayaz Rəhmanov, Cavid Xəlilov və Yusif Cabirzadənin adlarını çəkərkən səsindən və gözlərinin dərinliyində bir məğrurluq, inam və minnətdarlıq hiss olunurdu. "Tabeliyimdəki batareyanın təlim və məşğələlərdə qazandığı uğurlarda onların da hər birinin öz payı var," - deyən gənc zabitə görə hərbi bölmənin döyüş qabiliyyətinin gücləndirilməsi üçün kollektivdə qarşılıqlı münasibət olmalıdır. "Komandir əsgərinə, əsgər də komandirinə güvənməli, etibar etməlidir. Belə qarşılıqlı fəaliyyət qurulmasa, heç bir uğurdan, nailiyyətdən danışmağa dəyməz."

Vətəni qorumaq hər bir kəsin vətəndaşlıq borcudur. Baş leytenant Şahin Dadaşov bunu bir borc kimi yox Vətənə bağlılığı, xalqına, millətinə sevgisi ilə izah edir. İnanıram ki, Şahin kimi oğulların sayəsində əzəli və əbədi torpaqlarımızı düşməndən azad edərək, qələbəmizi yaxın vaxtlarda qeyd edəcəyik.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Əsgərlərimizə qulluq etmək hər birimiz üçün şərəfdir"





Hər bir gəncin böyüyüb boya-başa çatmasında müqəddəs varlıq, əvəzedilməz insan olan anaların zəhməti böyükdür. Dünyaya göz açan gündən övladına nəvaziş, qayğı göstərir ana. Ona Vətən sevgisi aşılayır, dövlətimizi sevdirir, vətənpərvər gənc kimi böyüdür. Zaman yetişir, övladını hərbi xidmətə yola salanda onu bağrına basır və xeyir-dua verib, Vətən borcunu layiqincə yerinə yetirməyə göndərir. "Vətən sənin ikinci anandır, onun keşiyində möhkəm dayan", - deyir.

Övladları xidmətdə olan analar hər an düşünür: "Görəsən, balam nə yedi?", "Sevdiyi yeməklərdən yeyə biləcəkmi?" və s.

Ağdam rayonunda ezamiyyətdə olarkən "N" hərbi hissəsinin artilleriya divizionuna yollanıram. Hərbi bölmənin təmiz və səliqəli ərazisi yaşıllığı ilə göz oxşayır.

Mayor Nizami Abdullayev məni müasir tələblərə cavab verən yeməkxana ilə tanış edir. "Ordumuzun maddi-texniki təminatı əsaslı dərəcədə yaxşılaşdırılıb, indi bu sahədə ən qabaqcıl texnologiyalar tətbiq edilir. Hərbi qulluqçuların ərzaq təminatı tam yaxşılaşıb", - deyir mayor. Yeməkxananın şəraiti, buradakı müasir mətbəx avadanlıqları ilə yaxından tanış oluram.



Son illər orduda həyata keçirilən ən mühüm tədbirlərdən biri də əsgərlər üçün yeməklərin hazırlanmasına peşəkar şəxslərin, qadınların cəlb olunmasıdır. Bu da hazırlanan yeməklərin daha dadlı və keyfiyyətli olmasını təmin edir. Bu islahat əsgərlərin təsərrüfat fəaliyyətindən tam şəkildə kənarlaşdırılaraq yalnız hərbi təlim keçmələrinə, döyüş hazırlığını yüksəltməyə şərait yaradıb.

Əsgərlərə öz övladları kimi xidmət edən aşpazlar və yeməkxana xidmətçiləri ilə söhbətləşirəm. Təcrübəli aşpazlardan Əntiqə Babayeva bildirir ki, hər gün əsgərlərimizə milli yeməklər bişiririk. Onun sözlərinə görə, aşpazların hər biri bacarıqlı, peşəkar qadınlardan seçilib.

"Oğlum da hərbi xidmət keçib. Mən əsgərləri öz övladımdan ayırmıram. Onlara öz övladlarım kimi xidmət edir, əlimdən gəldiyi qədər dadlı yeməklər bişirirəm", - deyir Əntiqə xanım.

Əsgər yeməkxanasının qulluqçularından Elza Əhmədova, Alicanə Quliyeva və başqaları əsgərlərimizə plov, küftə, borş, bozbaş, dolma və s. milli yeməklər hazırladığını, həmçinin fasilə uyğun olaraq ərik, alma, armud, üzüm və s. meyvələrdən kompotlar hazırladıqlarını deyirlər. Aşpazlardan birinin oğlunun hərbi xidmətə yola salmağa hazırlaşdığını öyrənirəm. "Oğlum bu yaxınlarda hərbi xidmətə yollanacaq. Hərbi hissədə ona bizim kimi qadınlar xidmət edəcək. Deməli, oğlum da ana əllərindən hazırlanan dadlı yeməklər yeyəcək. Və belə şəraitdə Vətənə layiqincə xidmət etmək çox asandır", - deyir Elza xanım.

Nahardan sonra yeməkxana xidmətçiləri Raisa Qarayeva və İlhamə Bayramova yemək qablarını tərtəmiz yuyub, səliqə ilə təyin olunmuş yerə yığırlar. "Əsgər balalarımıza qulluq etmək hər birimiz üçün şərəfdir. Biz çox sevincliyik ki, əsgərlərimizin qulluğunda dayanırıq", - onlar deyirlər.

Əziz valideynlər, bir daha əmin olun ki, hərbi hissələrimizdə təkcə yeməkxana kollektivi deyil, bütün xidməti işçiləri və komandirlər tərəfindən əsgərlərə doğma münasibət göstərilir.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Xarici hərbi xronika

## Dünyada hərbi xərclər 1.7 trilyon dollara qədər artıb



Dünya problemləri üzrə Stokholm Tədqiqat İnstitutunun məruzəsində 2015-ci ildə silahlanmaya çəkilən hərbi xərclərin 1.7 trilyon dollara qədər artdığı bildirilib. Ölkələr sırasında Rusiya hökuməti reytinqdə dördüncü yeri tutub və hərbi məqsədlər üçün bu ölkədə 66.4 milyard dollar vəsait xərclənib. Bu da 2014-cü ilə nisbətən 7.5 faiz çox deməkdir. Bu sırada hərbi xərclər üzrə liderliyi ABŞ tutur. Xərclərin 2.4 faizə qədər azalmasına baxmayaraq, məbləğ 596 milyard dollar təşkil edib. İkinci yeri Çin tutur ki, hərbi xərci 215 milyard dollar təşkil edib və 7.4 faiz artıb. Üçüncü yer Səudiyyə Ərəbistanına məxsusdur, hərbi xərcləri 87.2 milyard dollar təşkil edib.

2015-ci ilin hərbi xərcləri bir tərəfdən artan münaqişələri əks etdirir, digər tərəfdən də son on ildə neftlə əlaqədar hərbi xərclərin artmasını təsdiq edir.

## Silahlanmaya strateji mobil raket qəbul ediləcək



Yaxın vaxtlarda RS-26 "Yars-M" raket kompleksi Rusiyanın silahlanmasına qəbul ediləcək. "Rubej" təyinatını almış yeni ballistik raket mobil variantda buraxılacaq. Bu tipli raketlər strateji təyinatlı qoşunların tərkibində olan köhnəlmiş RS-12M "Topol" kompleksini əvəz edəcək. Gələn ildən bu silahın qoşunlara yerləşdirilməsi həyata keçiriləcək. Bu haqda agentliyin nümayəndəsi məlumat verib. Kompleksin hazırlanmasına 2000-ci ilin sonundan başlanılıb. Mövcud məlumatlara əsasən, raket ən müasir döyüş sursatları ilə təmin olunacaq.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Bakıda NATO-nun "Strateji kommunikasiya və ictimai əlaqələr" üzrə kursu keçirilib

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2016-cı il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun Brunssumda (Niderland Krallığı) yerləşən Birləşmiş Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən "Strateji kommunikasiya və ictimai əlaqələr" mövzusunda təlim kursu keçirilib.

Kurs müddətində NATO-nun nümayəndə heyəti tərəfindən şəxsi heyətə "NATO-nun hərbi strukturu", "NATO-da hərbi tərəfdaşlıq", "İctimai əlaqələr üzrə əməliyyatlar", "Strateji kommunikasiyanın hədəf auditoriyası", "İctimai əlaqənin nəticələri və vasitələri", "Strateji kommunikasiya və ictimai əlaqələr üzrə planın hazırlanması" və digər mövzulara dair mühazirələr oxunub, eləcə də işçi qruplarda müzakirələr və fikir mübadilələri aparılıb.

Kapitan Dadaşov Təsadüf Şükür oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş matros Həsənli Cavidan Babək oğluna 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 415 Nüsxə 4630 |